# Ümummilli liderin müdrik kəlamları alman dilində

**Almaniyanın “Zitate berühmter Personen” mədəniyyət portalı Azərbaycanda elan olunmuş “Heydər Əliyev İli”nə töhfə olaraq, dünya miqyaslı dövlət xadimi Heydər Əliyevin müdrik kəlamlarının yayımına başlayıb.**



Tərcümə Mərkəzindən bu barədə qəzetimizə verilən məlumatda qeyd edilib ki, Heydər Əliyevin həyatı və fəaliyyəti haqqında məlumatla təqdim olunan kəlamların alman dilinə tərcümə müəllifləri – Almaniya ədəbiyyatşünas alimi Martin Svoboda və Dövlət Tərcümə Mərkəzinin alman dili mütəxəssisi Məryəm Səmədovadır.

Xatırladaq ki, almandilli ölkələrin geniş oxucu auditoriyası tərəfindən izlənilən “Zitate berühmter Personen” portalı mütəmadi olaraq səhifələrində dünyaşöhrətli siyasətçi, filosof, yazıçı və şairlər haqqında məlumatlara və onların aforizmlərinə yer ayırır.

**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2023.- 6 aprel.- S.5.